



# MƏZUNLUQ MƏRASİMİ



Aprelin 13-də Xəzər Universitetinin "Dünya" konsert salonunda 36-cı məzunluq mərasimi keçirildi. Mərasimdə məzunlar və onların valideynləri, tələbələr, universitetin rəhbərliyi və professor-müəllim heyəti iştirak edirdilər.

Azərbaycanın Dövlət Himninin ifası ilə başlanan mərasimdə universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı məzunları təbrik edərək, yeni həyat yollarında onlara uğurlar arzuladı. O, universitetdə yaradılmış təhsil mühitindən və onun özünəməxsus xüsusiyyətlərindən, bu təhsil sistemi vasitəsilə yalnız ixtisasına yiyələnmiş mütəxəssislər deyil, eyni zamanda hərtərəfli inkişaf etmiş gənc nəsil yetişdirilməsindən, universitetin professor-müəllim heyətinin gərgin və səmərəli əməyindən, universitetin dünyanın aparıcı ali məktəbləri ilə əlaqələrindən, maddi-texniki bazanın daim genişləndirilməsindən olmasından, həmçinin universitetin gələcəkdə həyata keçirəcəyi geniş miqyaslı planlarından ətraflı bəhs etdi.




Sonra məzunlara diplomlar təqdim olundu. Diplomları prorektorlar Məhəmməd Nuriyev və Rafiq Əhmədov, fakültə dekanları, departament müdirləri və müəllimlər təqdim etdilər

Tələbələr çıxış edərək, universitet rəhbərliyinə və müəllim kollektivinə minnətdarlıqlarını bildirdilər, Xəzər Universitetinin andını söylədilər və xatirə şəkilləri çəkdirdilər.

Mərasim universitetin Musiqi və incəsənət departamentinin tələbələrin iştirakı ilə hazırladığı konsert proqramı ilə müşayiət olundu.





# PROFESSOR HAMLET İSAXANLI LEİDEN UNİVERSİTETİNDƏ OLMUŞDUR

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı martın 13-də Niderlandın Leiden Universitetində olmuşdur. O, universitetin Beynəlxalq münasibətlər ixtisası üzrə bakalavr proqramının yaradıcısı professor Riçard Griffits və universitetin Haaqada yerləşən kampusunun dekanı professor Bernard Steunenberg ilə görüşlər keçirmişdir. H. İsaxanlı Xəzər Universitetində tədris olunan Avropaşünaslıq ixtisasının kurikulumunun nümunəvi Avropa standartlarına uyğunlaşdırılması və Avropa Birliyi üzrə aparılan araşdırmaların təkmilləşdirilməsi məqsədilə Leiden Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı, fəlsəfə doktoru Eric Beerkens və Beynəlxalq münasibətlər və avropaşünaslıq ixtisasları üzrə tədris proqramının rəhbəri, professor André Gerrits ilə də görüşərək, konkret və əhatəli əməkdaşlıq imkanlarını müzakirə etmişdir.

H. İsaxanlı, həmçinin, Xəzər Universitetinin koordinatoru olduğu Azərbaycan universitetlərində Avropaşünaslıq ixtisasının təkmilləşdirilməsi üzrə Tempus proqramı çərçivəsində Leiden Universitetində təlimlərdə iştirak edən Bakı Dövlət Universiteti, Gəncə Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Bakı Slavyan Universiteti və Azərbaycan Universitetinin müəllimləri və beynəlxalq əlaqələr şöbələrinin rəhbərləri ilə də görüşmüşdür.





# ALBAN XRİSTİAN MƏDƏNİYYƏTİ

Martın 15-də Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun baş elmi işçisi, tarix elmləri üzrə fəlsəfə doktoru, Alban tarixinə aid kitabların müəllifi Mübariz Xəlilovun iştirakı ilə tarix və coğrafiya ixtisası üzrə təhsil alan tələbələr üçün "Alban xristian mədəniyyəti" mövzusunda elmi seminar keçirildi. M. Xəlilov Qədim Albaniya ərazisində yerləşmiş xristian məbədləri və Alban əlifbası haqqında məruzə etdi. Məruzəçinin mövzuya müxtəlif aspektlərdən yanaşması, dolğun və həqiqəti əks etdirən məlumatlar verməsi tarixin bir sıra məqamlarına aydınlıq gətirdi və onlar tələbələrlə müzakirə olundu.

M. Xəlilov tələbələrin suallarına da ətraflı cavab verdi.



## NÖVBƏTİ FƏLSƏFİ - PSİXOLOJİ SEMİNAR

Martın 17-də Xəzər Universitetində növbəti fəlsəfi - psixoloji seminar keçirildi. Tədbiri giriş sözü ilə univeritetin Fəlsəfə və sosiologiya departamentinin müdiri Mail Yaqubov açdı. Seminarda BDU-nun psixologiya müəllimi Nisə Abdullayeva və "İnside" psixologiya mərkəzinin psixoloqu Ruhəngiz Əhmədova "Cütlüklərin ünsiyyət problemi" mövzusunda mühazirə oxudular. Sonda mühaziraçilər tələbələrin suallarını cavablandırdılar.



## AZƏRBAYCANDA VƏ İRANDA İLAXIR ÇƏRŞƏNBƏ ƏNƏNƏSİ



Şərq dilləri və din araşdırmaları departamentinin təşkilatçılığı ilə martın 18-də "Azərbaycanda və İranda ilaxır çərşənbə ənənəsi" adlı mədəni tədbir keçirildi. Tədbirin açılışında departamentin müdiri Elnurə Əzizova Azərbaycan və İranın əsrlər boyu çox ortaq mirası paylaşdığını, ilaxır çərşənbənin qeyd olunmasının da bu ortaq mədəni miraslardan biri olduğunu qeyd etdi. Sonra fars dili müəllimi Zivər Hüseynli ilaxır çərşənbənin Azərbaycan və İran mədəniyyətindəki əhəmiyyəti haqqında danışdı. Daha sonra fars dili üzrə təhsil alan tələbələr Azərbaycan və fars dillərində ilaxır çərşənbəyə dair şeirlər söylədilər, Azərbaycanın müxtəlif bölgələrinin və İranın ilaxır çərşənbə ilə əlaqəli adət-ənənələri haqqında məlumat verdilər.

Tədbirə ilaxır çərşənbənin maraqlı adətlərindən birinin – suda cavan qızların falına baxma səhnəsinin də əlavə olunması ilə iştirakçıların bayram əhval-ruhiyyəsi daha da artdı. Sonda tələbələrin keçirdiyi "haxışta" oyununa qoşulan iştirakçılar hazırlanmış rəngarəng bayram süfrəsində bayram sevincini birlikdə paylaşdılar.



## ƏMƏKDAŞIMIZ BEYNƏLXALQ KONFRANSDA

Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov martın 25-26-da Vyetnam Respublikasının Hanoy şəhərində İqlim dəyişmələri və İstixana qazlarının tədqiqinə həsr olunan İkinci Texniki İşçi qrupun görüşündə və beynəlxalq konfransda iştirak və çıxış etmişdir.

R.Abbasov çıxışında mövzu ilə əlaqədar mülahizələrini bildirmişdir.

# "ELM VƏ SƏNƏT MƏCLİSİ"NƏ AİD SƏRGİ



Xəzər Universiteti "Elm və Sənət Məclisi"nin katibliyi tərəfindən yeni binaya keçiddəki foyedə bu günə kimi keçirilən məclislərin afişa sərgisi yaradılmışdır. "Elm və Sənət Məclisi"nin ilk məşğələsi 2006-cı il oktyabrın 10-da olmuşdur. Həmin tarixdən etibarən məclisin 61 məşğələsi keçirilmişdir.

Məşğələlərdə Azərbaycandan və dünyanın müxtəlif ölkələrindən – Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, İtaliya, Rusiya, Niderland, Misir, Türkiyə və digər ölkələrdən tanınmış elm adamları müxtəlif mövzularda məruzə etmiş və məruzələr ətrafında geniş müzakirələr aparılmışdır. Həmin materiallar "Elm və Sənət Məclisi" adı ilə kitablar halında çap edilmişdir.

Məşğələlərdə hər zaman Azərbaycanın və Xəzər Universitetinin tarix, ədəbiyyat, fəlsəfə, arxeologiya, psixologiya və digər sahələrdə fəaliyyət göstərən aparıcı elm adamları iştirak etmişlər. "Elm və Sənət Məclisi"nin web saytı da fəaliyyət göstərir:

*www.elmsenet.khazar.org*

# QUR'ANİ - KƏRİM: İNANC VƏ MƏDƏNİYYƏT MƏNBƏYİ KİMİ





Şərq dilləri və din araşdırmaları departamentinin təşkilatçılığı ilə martın 27-də universitetdə "Qur'ani-Kərim: inanc və mədəniyyət mənbəyi kimi" mövzusunda seminar keçirildi. Tədbirin açılışında departamentin müdiri Elnurə Əzizova Qur'ani-Kərimin müsəlmanların 14 əsrlik kimliyinin formalaşmasındakı yerindən danışdı, həmçinin Azərbaycan xalqının adət-ənənələrində, mədəni irsindəki əhəmiyyətini vurğuladı.

Seminarın məruzəçisi – Süleyman Dəmirəl Universitetinin İlahiyyat fakültəsinin müəllimi (hazırda BDU İlahiyyat fakültəsinin dekan müavini), fəlsəfə doktoru Ali Bulut tələbələrə İslam dininin müqəddəs kitabı və İslam mədəniyyətinin dəyərlərini ehtiva edən mənbə kimi Qur'ani-Kərimin xüsusiyyətlərindən danışdı. O, İslamın yarandığı zəmində ərəblərin ədəbiyyat səviyyəsi haqqında məlumat verdikdən sonra Qur'anın yazılma prosesi, onun 14 əsr boyunca dəyişmədən nəql olunması kimi tarixi cəhətindən bəhs etdi.

Daha sonra məruzəçi Qur'anın strukturu, əsas mövzuları, İslam mədəniyyətinin formalaşmasında rol oynayan ümumi prinsipləri haqqında məlumat verdi. Məruzənin sonunda Qur'ana görə digər din mənsublarının mövqeyi, qadın-kişi bərabərliyi, sülh-hərb münasibəti, iman-ibadət-əxlaq əlaqəsi kimi mövzularda tələbələrin bir-birindən maraqlı sualları cavablandırıldı.






# İNSAN HÜQUQLARI, DİN AZADLIĞI VƏ İSLAM

Martın 31-də Xəzər Universitetində Şərq dilləri və din araşdırmaları departamentinin təşkilatçılığı ilə "İnsan hüquqları, din azadlığı və İslam" mövzusunda seminar keçirildi. Tədbirin açılışında departamentin müdiri i.f.d. Elnurə Əzizova insan hüquqları və din azadlığı mövzusunun İslam kontekstində son dövrlərdə müxtəlif çevrələrdə fərqli şəkildə müzakirə edildiyini və gün keçdikcə aktuallaşdığını bildirərək, mövzunun əhəmiyyətini vurğuladı.

Sonra Elnurə Əzizova "İslam insan hüquqları bəyannamələrində din azadlığı konsepsiyasının təhlili, i.f.d. Ali Bulut (Süleyman Demirel Universiteti, Türkiyə) "İnsan hüquqları kontekstində Qur'ana baxış", i.f.d. Elmin Əliyev (Xəzər Universiteti) "Elm və fəlsəfə kontekstində İslamda fikir azadlığı" və ilahiyyatçı alim Saleh Kazımov (BDU) "İslamın digər din mənsublarına münasibəti" mövzularında məruzə etdilər.

Məruzələrdən sonra Xəzər Universitetinin əməkdaşlarından f.f.d. Mayıl Yaqubov, Cabir Məmmədov, f.f.d. Zivər Hüseynovanın və tələbələrin iştirakı ilə məruzələr ətrafında müzakirə aparıldı.

CATEC
caspian aqua technologies exhibition and conference

## TƏLƏBƏLƏRİMİZ FƏRQLƏNMƏ SERTİFİKATI ALMIŞLAR

Xəzər Universiteti Təhsil fakültəsinin tələbələri Xəyalə Səlimova, Gülyaz Ömərli və Səbinə Məhəmmədova aprelin 10-14-də BMT-nin Ümumdünya Su Şurası və Azərsu Açıq Səhmdar Cəmiyyəti tərəfindən keçirilmiş 2-ci Xəzər Beynəlxalq Su Texnologiyaları Sərgisində iştirak etmişlər.

Onlar sərgidə Xəzər Universitetinin Ətraf Mühitin Tədqiqi Mərkəzi ilə birgə hazırladıqları yağış suyu ilə işləyən istixana maketini nümayiş etdirmişlər. Sərgidən sonra tələbələrimizə Azərsu Açıq Səhmdar Cəmiyyətinin fərqlənmə sertifikatları təqdim olunmuşdur.



BRITISH COUNCIL

XƏZƏR UNİVERSİTETİ 1991 BAKI

The University of Nottingham

# "XƏZƏR"DƏ BEYNƏLXALQ TƏHSİL SEMİNARI



Martın 25-28-də Xəzər Universitetində British Council tərəfindən maliyyələşdirilən, Xəzər Universiteti və Nottingham Universiteti (Böyük Britaniya) tərəfindən təşkil olunmuş "Azərbaycan və Birləşmiş Krallıqda təhsil liderliyi və siyasəti: məktəblərin təkmilləşdirilməsi ilə bağlı potensialın yaradılması" mövzusunda seminar keçirildi. Seminarda Xəzər, Nottingham, Varvick, Middlesex, Mançester, Leicester, Linkoln, Çiçester, Brunel universitetlərinin və London Təhsil İnstitutunun (Böyük Britaniya) rəhbərləri, müəllimləri və tədqiqatçıları, habelə Azərbaycanın ali təhsil müəssisələrinin, dövlət qurumlarının və media nümayəndələri iştirak edirdilər.

*(Ardı səh.17 - də)*














BRITISH COUNCIL


The University of Nottingham
BRITISH COUNCIL










BRITISH COUNCIL













## HÜQUQ TƏDRİS MƏRKƏZİNDƏ RƏMZİ MƏHKƏMƏ

ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyə dəstəyi ilə Azərbaycan Hüquqşünasları Konfederasiyası (AHK) və Xəzər Universitetinin birgə layihəsi olub, universitetin Humanitar və sosial elmlər fakültəsinin nəzdində yaradılmış Hüquq Tədris Mərkəzində dörd aylıq təlim kursları müvəffəqiyyətlə başa çatmışdır.

Aprelin 12-də təlim kurslarının sonu olaraq "İnsan hüquqları" üzrə təlim keçən iştirakçılar Xəzər Universitetinin müəllimi və Azərbaycan Vəkillər Kollegiyasının üzvü Akif Əlizadənin rəhbərliyi ilə İnsan hüquqları üzrə rəmzi məhkəmə təşkil etdilər.

Tədbirin gündəliyinə uyğun olaraq rəmzi məhkəmə tərəflərin giriş nitqləri ilə açıldı, zərər çəkmiş şəxsin sərbəst ifadəsi və şahid ifadələri ilə davam etdirildi, tərəflərin yekun nitqləri, andlıların müşavirə otağına getmələri, qərarın elan olunması ilə başa çatdı.

Rəmzi məhkəmədə 10 andlı iclasçı qismində tələbələr və Hüquq Tədris Mərkəzinin işçi heyəti, eləcə də AHK nümayəndəsi iştirak edirdi.

Sonda iştirakçılar Hüquq Tədris Mərkəzində müzakirələr apardılar və tədbirin təşkilində göstərdiyi dəstəyə görə Xəzər Universitetinin rəhbərliyinə, həmçinin Tədris Mərkəzinin əməkdaşlarına təşəkkürlərini bildirdilər.

## ELMİ -İNZİBATİ ŞURANIN İCLASI

Aprelin 11-də Xəzər Universitetinin tədris işləri üzrə prorektoru Məhəmməd Nuriyevin sədrliyi ilə Elmi-İnzibati Şuranın növbəti iclası keçirildi İclasda Məzunluq; Tədris planı və fənn proqramlarının təsdiqi; Doktoranturaya qəbul və dissertasiya mövzuları haqqında məsələlər müzakirə olundu.

Məzunluq haqqında fakültə dekanlarının, Tədris planı və fənn proqramlarının təsdiqi haqqında prorektor M. Nuriyevin, Doktoranturaya qəbul və dissertasiya mövzuları haqqında Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri Eldar Şahgəldiyevin məlumatları dinlənildi.

Müzakirə olunmuş məsələlərlə əlaqədar müvafiq qərarlar qəbul edildi.

## TŞASC-NİN ŞÖBƏ RƏİSİ TƏLƏBƏLƏR QARŞISINDA MÜHAZİRƏ OXUMUŞDUR

Martın 31-də Təmiz Şəhər Açıq Səhmdar Cəmiyyətinin (TŞASC) İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Sabit Zeyniyev Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin qonağı olmuş, tələbələrə "Bərk tullantıların idarə olunması" mövzusunda mühazirə oxumuşdur. Sonda məruzəçi tələbələrin suallarına cavab vermişdir.







CARL VON OSSIETZKY universität OLDENBURG

## MİQRASİYA KONTEKSTİNDƏ KİMLİK

Aprelin 8-də Almaniyanın Oldenburq Universitetinin (Carl von Ossietzki University Oldenburg ) elmlər doktoru Ulrike Lingen Əli (Ulrike Lingen-Ali) Xəzər Universitetinin qonağı oldu. Xanım Ulrike tələbə və müəllimlərə “Miqrasiya kontekstində kimlik” mövzusunda mühazirə oxudu. Tədbir “Miqrasiya və ali təhsil - bilik və bacarıqların aşılanması” layihəsi çərçivəsində təsis olunmuş Miqrasiya Araşdırmaları Mərkəzi tərəfindən keçirilmişdir.

Tədbirdə Qafqaz Universitetinin müəllim və tələbələri də iştirak etdilər.

CARDIFF UNIVERSITY

## KARDİFF UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ



Aprelin 10-da Kardiff Universitetinin (Böyük Britaniya) Beynəlxalq ofisinin nümayəndələri Sara Şerrington və Anne Morgan Xəzər Universitetində olub, tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev, Maqistratura, dokturantura və elmi tədqiqatlar bölməsinin müdiri Eldar Şahgəldiyev, İqtisadiyyat departamentinin müdiri Ceyhun Məmmədov və İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva ilə görüşdülər. Görüş zamanı onlar Xəzər Universiteti ilə Kardiff Universiteti arasında gələcək əməkdaşlıq məsələlərini müzakirə etdilər.




# BAKI ŞƏHƏRİNİN SURAXANI, NİZAMİ, NƏRİMANOV, SƏBAİL VƏ NƏSİMİ RAYONLARININ MƏKTƏBLİLƏRİ İLƏ "XƏZƏR"DƏ GÖRÜŞLƏR



Aprelin 7-11-də Xəzər Universitetində Bakı şəhərinin Suraxanı, Nizami, Nərimanov, Səbail və Nəsimi rayonlarının ərazisində yerləşən orta məktəblərin XI sinif şagirdləri ilə görüş keçirildi. Məktəblilər öncə universitet ilə tanış oldular, laboratoriyaları, sinif otaqlarını gəzdilər, dərslərin gedişini əyani şəkildə izlədilər. Universitet ilə tanışlıqdan sonra şagirdlər, məktəblərin müəllimləri, valideynlər universitetin Mərmər salonunda toplaşdılar. Universitetin Qəbul və tələbə şöbəsinin müdiri İsaxan İsaxanlı universitetdəki ixtisaslar və bu günə kimi əldə edilən nailiyyətlər haqqında şagirdlərə geniş məlumat verdi.

Universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı auditoriya qarşısında çıxış edərək, məktəblilərə ixtisas seçiminin vacibliyini vurğuladı, onlara qarşıdakı imtahanlrda uğurlar arzuladı.

















## "XƏZƏR" RƏHBƏRLİYİNİN BİNƏQƏDİ RAYONUNDA MƏKTƏBLİLƏRLƏ GÖRÜŞÜ

Bakı şəhərinin Binəqədi rayonun ərazisində yerləşən 135 saylı məktəbdə Xəzər Universiteti rəhbərliyinin həmin rayonun XI sinif şagirdləri ilə görüşü keçirildi. Öncə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aynur Əliyeva salona toplaşan qonaqları və rayon məktəblilərini salamladı. A. Əliyeva məktəb- universitet əlaqələrinin vacibliyini vurğulayaraq, Xəzər Universiteti ilə əlaqələrin əhəmiyyətindən danışdı.

Görüşdə Xəzər Universiteti haqqında film nümayiş etdirildi. Sonra universitetin Qəbul və tələbə şöbəsinin müdiri İsaxan İsaxanlı ixtisaslar haqqında geniş məlumat verdi.

Universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ali məktəblərin qarşısında duran məqsəd və vəzifələrdən, qlobal dünyamızda Azərbaycan universitetlərinin görəcəyi işlərdən danışdı və məktəblilərin suallarını cavablandırdı. Xəzər Universiteti tələbələrinin iştirakı ilə konsert verildi. Görüşdə universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli iştirak etdi.






# "DÜNYA" MƏKTƏBİ

"Xəzər Xəbər" dərgisinin "Dünya" məktəbi üçün əlavəsi



*"Dünya" məktəbi Azərbaycanda analoqu olmayan ümumi təhsil verən tam orta məktəbdir. Burada intellektual, kulturoloji, aksioloji keyfiyyətlərə yiyələnmiş müasir gənclər yetişdirilir. Məktəbdə hökm sürən intizama, davranış normalarına riayət mədəniyyəti, öyrənci azadlığı, müstəqilliyi və təşəbbüskarlığı, xeyriyyəçilik, humanizm, əxlaqi-mənəvi dəyərlərin təcəssümü öyrənciləri ləyaqətli Vətən övladı kimi hazırlayırsa, İBO dünya sistemində təhsil, beynəlxalq hüquq və imtiyazlar bərabərliyi onları dünyanın ən inkişaf etmiş ölkələrində təhsil ala, işləyə bilən dünya insanına çevirir.*

*Mən deyərdim ki, "Dünya" məktəbi Xəzər Universitetinin dünyaya baxış pəncərəsi, çıxış qapısıdır...*

*Professor Əjdər AĞAYEV,*
*Azərbaycan Təhsil Şurasının sədri*

## SƏMƏD VURĞUNUN EV MUZEYİNƏ EKSKURSİYA

Mart ayının 11-də "Dünya" məktəbinin müəllimi Aydın Qənbərovun rəhbərliyi ilə VIIIa sinif şagirdlərinin Səməd Vurğunun ev muzeyinə ekskursiyası təşkil edilmişdir.

Muzeydə bizi bələdçi Mələk xanım qarşıladı və şairin həyat və yaradıcılığı barədə ətraflı məlumat verdi. Məlum oldu ki, şaririn iş otağı, qonaq və yataq otağı onun sağlığında olduğu kimi saxlanılır. Digər 3 otaqda isə S. Vurğunun həyat və yaradıclığını, ictimai fəaliyyətini, xatirəsinin əbədiləşdirilməsini əks etdirən ekspozisiyalar quraşdırılmışdır.

Şairin iş otağında hər şey sadə, hər şey adi idi. Yazı stolu, stullar, kitablarla dolu dolablar…Yazı stolunun üstündə şairin son əlyazmaları, avtoqələmi və şairin ən çox sevdiyi çiçək- bənövşə qoyulmuşdur.

Şairin qonaq otağındakı royal şagirdlərin xüsusi ilə diqqətini çəkdi. Məlumat verildi ki, bu royalda Azərbaycan milli operasının banisi Ü. Hacıbəyli, eləcə də məşhur bəstəkarlar Q. Qarayev, F. Əmirov, S. Rüstəmov öz əsərlərini ifa etmişlər.

Sonda Aydın müəllim və şagirdlərin xahişi ilə S.Vurğunun öz səsi ilə "Bahar" şeiri dinlənildi və şagirdlərlə xatirə şəkilləri çəkdirildi.



*Xumar Ağayeva,*
*"Dünya" məktəbinin müəllimi*



# "DÜNYA" MƏKTƏBİNİN 15 İLLİYİNƏ



Aprelin 5-də Xəzər Universitetinin Mərmər salonunda "Dünya" məktəbinin 15 illiyinə həsr olunmuş mərasim keçirildi. Mərasimi Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurası sədrinin müşaviri, məktəbə yarandığı gündən təxminən on ildən çox müddət ərzində rəhbərlik etmiş Nailəxanım İsayeva açaraq, məktəb kollektivini və məktəbin yaranıb bərqərar olmasında əməyi olan insanları təbrik etdi.

Məktəbin direktoru Mərufə Mədətli çıxış edərək, məktəbin ötən illərdəki fəaliyyəti və gələcəkdə görüləcək işlər haqqında geniş məlumat verdi. "Dünya" məktəbi haqqında film nümayiş etdirildi. Məktəbin təkmilləşdirilmiş yeni saytı təqdim olundu.





## HƏSR OLUNMUŞ MƏRASİM



"Dünya" məktəbinin və Xəzər Universitetinin təsisçisi, universitetin Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı məktəb kollektivini təbrik edərək, gələcək fəaliyyətində onlara uğurlar arzuladı.

Mərasimdə "Dünya" məktəbinin rəhbərliyinə və müəllimlərinə, Xəzər Universitetinin "Dünya" məktəbinin yaranması və inkişafında əməyi olmuş əməkdaşlarına təşəkkürnamələr təqdim edildi. Mərasim konsert proqramı ilə müşayiət olundu və ziyafətlə başa çatdı.





# UŞAQ KİTABI SƏRGİSİNDƏ

1953-cü ildən etibarən məşhur nağılçı Hans Xristian Andersenin doğum günü – 2 aprel Beynəlxalq Uşaq Kitabı Günü kimi qeyd olunur. Bundan məqsəd cəmiyyətin diqqətini uşaq ədədbiyyatına və onun problemlərinə cəlb etməkdir.

"Dünya" məktəbinin IIIa və IIIb sinif şagirdləri aprelin 2-də Firudin bəy Köçərli adına uşaq kitabxanasında bu münasibətlə təşkil edilmiş sərginin açılışında maraqlı kitablarla tanış oldular. Şagirdlər, eyni zamanda, sərginin qonağı olan sevimli yazıçıları –İlyas Tapdıq, Zahid Xəlil, Reyhan Yusifqızı və digərləri ilə də görüşüb, onların uşaq ədəbiyyatı haqqında fikirlərini, şeirlərini dinlədilər.

*Fidan Təbrizi,*

*"Dünya" məktəbinin müəllimi*





***Materialları "Dünya"məktəbinin müəllimi Mədinə Karahan çapa hazırlamışdır***